# Eksponatlarda yaşayan tarix

**İsmayıllı rayon tarix-diyarşünaslıq muzeyi 1981-ci ildən fəaliyyət göstərir. Burada antik dövrlərdən başlayaraq indiki dövrlərə qədər 2500-ə yaxın eksponat toplanmışdır.**

Muzey darısqal olduğundan il ərzində ancaq 500-600 ədəd əşyanı nümayiş etdirmək olurdu. Muzeydə 8 nəfərdən ibarət kollektiv çalışır. Lakin işçilərin işləməsi üçün iş otağı nəzərdə tutulmamışdır. Buna baxmayaraq çalışırıq ki, qarşımızda duran bütün məsələlərin öhdəsindən uğurla gələk.

Bu yaxınlarda məlumat aldıq ki, rayonun Pirdinar yaşayış məntəqəsi yaxınlığından keçən Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişi zamanı gedən qazıntı işləri zamanı qədim qəbristanlıq və çoxlu sayda gil qablar aşkar olunmuşdur. Təcili olaraq rayon mədəniyyət və turizm şöbəsinin müdiri Azər Abbasovla həmin əraziyə getdik. İlk növbədə qazıntı işlərini dayandırmalı olduq. Bu barədə Mədəniyyət və Turizm Nazirliyinə, Milli Elmlər Akademiyasına məlumat verdik. Qazıntı yerindən süddan tipli süzgəcli gil qablar, təknə qəbirlərin qalıqları, insan sümükləri və çoxlu sayda saxsı qablar toplanmışdır. Əraziyə Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları da baxış keçirdilər.

Mütəxəssislərin ilkin rəyinə görə bu əşyaların antik dövrə aid olduğu bildirildi. Qazıntı yerindən toplanmış qədim əşyalar aktlaşdırılaraq rayon tarix-diyarşünaslıq muzeyinə təhvil verildi.

İsmayıllı rayonu ərazisində belə abidələr sayca çoxdur. Mollaisaqlı kəndi yaxınlığında e.ə. III-I və eramızın I əsrinə aid qədim qəbristanlıq və yaşayış yeri. Burada 1971-ci ildə arxeoloji qazıntılar zamanı təknə qəbirlər, dulusçuluq məmulatları aşkar olunmuşdur.

Hacıhətəmli kəndində e.ə. III əsrə aid qəbristanlıq, e.ə. III-I əsrlərə aid yaşayış yerləri və nekropol.

Vəng kəndi yaxınlığında e.ə. IV-I əsrlərə aid nekropol, e.ə. IV-III əsrlərə aid torpaq qəbirlər.

Qalagah kəndi yaxınlığında e.ə. I və eramızın I əsrinə aid yaşayış yeri və s.

Belə abidələr İsmayıllı rayonunun əksər yaşayış məntəqələrində vardır. Bu cür abidələr sözün müəyyən mənasında tərcümeyi-halımızdır. Tarixi keçmişimizi özündə əks etdirən tarixi abidələri göz bəbəyimiz kimi qorumalıyıq. Çünki bu abidələr bizim kim olduğumuzun tarixi dəlil-sübutlarıdır.

İsmayıllı rayonu möhtəşəm qalalarla da zəngindir. Cavanşir qalası, Qız qalası, Niyal qalası, Qasımxan qalası, Haram-Qırxotaq qalası, Girdiman qalası, Xan qalası, Fit qalası, Buzxana və s. Qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına aid yaşayış yerləri, qəbir abidələri, qalalar və digər tarixi yadigarlarla zəngin olan İsmayıllıda təəssüf hissilə qeyd etmək istərdim ki, bu günə qədər ona layiq bir muzey binası olmuşdur. Lakin artıq böyük inamla demək olar ki, bütün bu çətinliklər arxada qalmaq üzrədir. Tezliklə rayonda geniş, yaraşıqlı bir muzey binası istifadəyə veriləcək.

Rayon İcra Hakimiyyətinin başçısı hörmətli Nizami Ələkbərovun köməyi ilə rayonun dilbər guşələrindən birində, ulu öndərimiz Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında geniş, yaraşıqlı, müasir standartlara uyğun muzey binasının tikintisi başa çatmaq üzrədir və yaxın günlərdə istifadəyə veriləcəkdir.

***İllərdir problem kimi qalan bir məsələ məhz Nizami müəllimin köməkliyi ilə həll olundu. Bütün mədəniyyət və rayon ictimaiyyəti adından Nizami müəllimə böyük təşəkkürümüzü bildiririk. Qeyd etmək lazımdır ki, hal-hazırda rayonda böyük tikinti-quruculuq işləri uğurla gedir. Bütün bu görülən işlər məhz Nizami müəllimin xüsusi qayğısı, səyi və köməkliyi ilə aparılır.***

**İ. İSMAYILOV,**
*rayon tarix-diyarşünaslıq muzeyinin direktoru*